# Əmək münasibətlərinə vergi nəzarəti

Ölkədə davam etdirilən iqtisadi inkişaf siyasəti nəticəsində bu sahədə ənənəvi hesab edilən neft-qaz sektoru ilə yanaşı investisiya, sahibkarlıq, maliyyə-bank sektoru və sair istiqamətlərdə dinamik inkişafa nail olunmuşdur. Qeyri-neft-qaz sektorunun makroiqtisadi göstəricilərində inkişaf templərinin artması, yerlərdə sahibkarlığın inkişafının daha da sürətləndirilməsi, yoxsulluğun azaldılması, yeni iş yerlərinin açılması, nəticə etibarilə əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində uğurlu nəticələr qazanılmışdır.
Lakin ölkədəki iqtisadi artıma və əhalinin gəlirlərinin yüksəlməsinə baxmayaraq, bəzi təsərrüfat subyektləri tərəfindən vergi orqanlarına təqdim olunan muzdlu işlə əlaqədar əməkhaqqından gəlir vergisi hesabatlarında real vəziyyətə uyğun göstəricilər əks olunmur. Belə ki, iqtisadiyyatın ayrı-ayrı sektorlarında çalışan bir sıra vergi ödəyicilərinin muzdlu işlə əlaqədar təqdim etdikləri vergi bəyannamələrində əməkhaqqı məbləğləri təsərrüfat subyektinin real potensialı, eləcə də həmin sektor üzrə fəaliyyət göstərən və əməkhaqlarının düzgün müəyyən edilməsinə üstünlük verən vergi ödəyicilərinin əməkhaqqı məbləği göstəriciləri ilə uzlaşmır və onlardan hətta bir neçə dəfə aşağı olur. Eyni zamanda, işçi sayı, əmlakı və dövriyyəsinin həcmi daha çox olan müəssisələrdə direktor, baş mühasib, menecer kimi vəzifələr üçün müəyyənləşdirilmiş əməkhaqları sıravi işçilər üçün müəyyən edilən məbləğlərlə eynilik təşkil edir. Bundan başqa, vergi ödəyicisi tərəfindən muzdlu işə cəlb edilməli olan, işin mahiyyətinin muzdlu iş hesab olunması üçün əhəmiyyətli əsaslara malik, lakin vergi ödəyicisi tərəfindən vergidən yayınma məqsədi ilə işə cəlb olunan şəxs arasında mülki əqd əsasında müqavilələr bağlanır. Bütün bunlar vətəndaşların sosial və əmək hüquqlarının, digər tərəfdən vergi və sosial qanunvericiliyin pozulması, işçi qüvvəsinin real bazar dəyərindən əhəmiyyətli dərəcədə aşağı qiymətləndirilməsi, eləcə də ödəyicilər tərəfindən vergidənyayınma hallarına yol verilməsi ilə nəticələnir. Bu kimi hallar, ilk növbədə, vətəndaşların sosial maraqlarının təmin olunmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsinə mənfi təsir göstərməklə, gələcəkdə dövlətin sosial təminatından istifadədən məhrum etmiş olur. Vergi ödəyiciləri tərəfindən muzdla işləyən işçilərə uçotdan kənar əməkhaqlarının verilməsi hallarının mövcudluğu bu işçilərin gələcək sosial təminatını təhlükə altında qoymaqla gəlir vergisi üzrə vergitutma bazasının azalmasına da səbəb olur. Bu cür hallar əmək münasibətlərində vergi nəzarətinin gücləndirilməsini zəruri edir.
Məhz buna görə, Vergilər Nazirliyi əmək müqavilələrinin bağlanması və əməkhaqlarının leqallaşdırılması sahəsində mütəmadi olaraq qanunvericlikdə nəzərdə tutulmuş vergi nəzarətini həyata keçirir və bu sahədə real vergitutma bazasının formalaşdırılması üçün qanunamüvafiq tədbirlər görür. Rəsmiləşdirilməmiş iş yerlərinin aşkara çıxarılması və qanunu pozanların məsuliyyətə cəlb olunması ilə, digər dövlət qurumları ilə yanaşı, Vergilər Nazirliyi də kompleks tədbirlər həyata keçirir. Müvafiq məqsədyönlü tədbirlər nəticəsində işçilərlə əmək müqaviləsinin bağlanmasına nəzarətin daha da gücləndirilməsi məqsədilə Vergilər Nazirliyində qərargah, dövlət satınalmalarına və əmək münasibətlərinə nəzarət edəcək xüsusi şöbə yaradılmışdır. Bununla bərabər, vergilər nazirinin müvafiq əmrinə əsasən əmək münasibətləri sahəsində Konsepsiya təsdiq edilmiş, muzdlu işlə əlaqədar ödəmə mənbəyindən tutulan vergi bəyannaməsinə 3 nömrəli əlavə edilmişdir. Konsepsiya vergi nəzarəti tədbirləri ilə əhatə olunan vergi ödəyicilərində muzdli işlə əlaqədar ödənilmiş gəlir vergisi üzrə uyğunsuzluqların araşdırılması və kənarlaşmalar üzrə fərdi yanaşma prinsipi əsasında vergilərin hesablanmasını müəyyən edir. Konsepsiyada əmək münasibətləri üzrə vergidənyayınma risklərinin fəaliyyət sahələri üzrə araşdırılması mexanizmləri, muzdlu işlə əlaqədar ödənilmiş əməkhaqqı səviyyəsinin və işçi sayının müqayisəsi üçün hesablama meyarlarını, o cümlədən yerli vergi orqanlarında əmək münasibətlərinə nəzarət edəcək komissiyanın işinin, əmək münasibətləri üzrə vergidən yayınma riskləri olan vergi ödəyiciləri ilə işlərin təşkili nəzərdə tutulur. Əmək münasibətləri üzrə uyğunsuzluqların (büdcədən maliyyələşən təşkilatlar istisna olmaqla) araşdırılması məqsədilə ilkin olaraq AVİS-in proqram təminatında, «Axtarış və hesabat» informasiya sistemində mövcud olan, habelə digər mənbələrdən əldə edilmiş məlumatlar əsasında müəyyən olunmuş risk meyarları üzrə təhlillər və araşdırmalar aparılmalıdır.
Meyarlar üzrə təhlillərə uyğun olaraq vergi ödəyiciləri rabitə və nəqliyyat, topdan ticarət, təhsil, səhiyyə, maliyyə xidmətləri, digər pərakəndə ticarət, ictimai iaşə, istehsal, sənaye və tikinti mallarının pərakəndə satışı, təmir-tikinti sahələri üzrə qruplaşdırılır. Vergi orqanları əmək

müqavilələrinə nəzarət sahəsində riskli vergi ödəyicilərini müəyyən edərkən bir sıra meyarlara əsaslanırlar. Bunlardan bir neçəsini oxucuların nəzərinə çatdırırıq.
Məlumdur ki, vergi ödəyiciləri vergi orqanlarına fəaliyyətlərinin nəticələrinə dair müvafiq bəyannamələr (hesabatlar) təqdim edirlər. Riskli vergi ödəyiciləri təqdim etdiyi bəyannamədə dövriyyəsini göstərən, lakin işçi sayını göstərməyən hüquqi şəxslər, iki və daha çox aktiv obyekti olan (icarədə olmayan), həmçinin iki və daha çox aktiv NKA-sı olan, lakin vergi orqanına təqdim etdiyi bəyannamədə işçi sayı və əməkhaqqı məbləğini göstərməyən və ya fəaliyyət spesifikasına uyğun olmayan işçi sayı və əməkhaqqı məbləği göstərən vergi ödəyiciləri arasından seçilir.
Məsələn, məlumdur ki, iki NKA-sı olan vergi ödəyicisinin kassa aparatına nəzarət edən iki işçisi olduğu halda, ödəyici vergi bəyannaməsində işçi sayını gizlədir, yaxud az göstərir. Bu da, təbii ki, büdcəyə gəlir vergisinin az ödənilməsi və ya vergidənyayınma halının mövcudluğuna dəlalət edir.
Riskli vergi ödəyiciləri, həmçinin, vergi ödəyicisində keçirilən sonuncu vergi nəzarəti və ya müşahidə (səyyar vergi yoxlaması, operativ vergi nəzarəti, pasportlaşma və sair) tədbirləri nəticəsində müəyyən edilmiş işçilərin sayı ilə vergi orqanına bəyan etdikləri işçi sayının müqayisəsi əsasında da müəyyən edilə bilər. Qeyd edək ki, vergi orqanlarında uçotda olan vergi ödəyiciləri haqqında məlumatların dürüstləşdirilməsi məqsədilə Vergilər Nazirliyi tərəfindən onların obyektlərini ötən ildən pasportlaşma tədbirləri həyata keçirilməyə başlanmışdır. Vergi orqanları tərəfindən həyata keçirilən pasportlaşma tədbirləri nəticəsində vergi orqanlarında mövcud baza məlumatlar ilə əldə olunan məlumatlar arasında bir çox uyğunsuzluqlar aşkar edilmiş, külli miqdarda dövriyyəyə malik ödəyicilərin həqiqətdə hesabatda göstəriləndən bir neçə dəfə artıq işçi sayına malik olduqları məlum olmuşdur.
Riskli vergi ödəyiciləri balansında olan nəqliyyat vasitələrinin sayı ilə hesabatda göstərilən işçi sayının, əgər vergi ödəyicisi lisenziya tələb edən fəaliyyətlə məşğuldursa lisenziyanın şərtlərinə əsasən mövcud olmalı olan işçilərin sayı ilə göstərilmiş işçilərin sayının müqayisəsi və sair meyarlar üzrə seçilir. Eyni zamanda, orta hesabla bir işçiyə düşən aylıq əməkhaqqı məbləğinin artmasına baxmayaraq, bəyannamədə göstərilən gəlir vergisi məbləği dəyişmədikdə və ya azaldıqda, vergi ödəyicilərinin işçilərinin sayı barədə mövcud baza məlumatları ilə DSMF-dən daxil olmuş məlumatlar üzləşdirilərkən fərqlər aşkar olduqda riskli vergi ödəyiciləri müəyyən edilir.

Arzu İBRAHİMOVA